**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**QƏRBİ KASPI UNİVERSİTETİ**

**Tarix kafedrası**

Magistr təhsil pilləsi üçün

# PROQRAM

Fənn: Qafqaz numizmatikası
İxtisas: Tarix – 060206
Fənnin kodu: IFS – B4

Qərbi Kaspi Universitetinin Tədris Metodik Şurasının 25 aprel 2023-cü il tarixli iclasının 05 saylı iclas protokolu ilə təsdiqlənib.

**Bakı – 2023**

**Tərtibçi:**

**tarix üzrə fəlsəfə doktoru  Aygün Məmmədova**

**Redaktor:**

**tarix üzrə elmlər doktoru,**
**professor Əli Rəcəbli**

**Rəyçilər:**

**tarix üzrə fəlsəfə doktoru, dosent Sənubər Qasımova**
**Milli Azərbaycan Tarixi Muzeyi**

**tarix üzrə fəlsəfə doktoru Nurlan Nəsirov**
**Qərbi Kaspi Universiteti**

**© Qərbi Kaspi Universiteti, 2023.**

## Ümumi müddəalar və fənnin təsviri

Numizmatika - müəyyən çəki, əyar və formaya malik metal pul – sikkələri tədqiq edən elm sahəsidir. Numizmatikanın əsas məqsədi numizmatik terminlərin izahı, şəhər-zərbxanaların, müxtəlif tarixi mərhələlərdə Azərbaycanda pul təsərrüfatı və xarici ticarət əlaqələrinin müəyyən edilməsidir.

Kursun əsas məqsədi – müxtəlif tarixi mərhələlərdə Cənubi Qafqazda zərb edilən sikkələrin səciyyəvi cəhətlərini bilmək, pul islahatlarını öyrənmək, tarixi dövrlərin pul təsərrüfatını, şəhər-zərbxanalarını və numizmatik təyinat metodlarını müəyyən etməkdir.

Bu kurs - sikkələrin meydana gəlməsindən əvvəl və sonrakı dövrdən başlayaraq numizmatik məlumatların qeydə alınması və daha sonralar belə məlumatlara elmi-metodoloji yanaşmanın tətbiqi, Cənubi Qafqazda numizmatika elminin yaranması və inkişaf dinamikası, yerli pul təsərrüfatı və xarici ticarət əlaqələri və s. əsas mövzuları əhatə edir.

Numizmatika fənninin mənimsənilməsi numizmatik hadisələri daha geniş anlamda, tənqidi təfəkkürlə və dərindən başa düşməyimizə zəmin yaradır, bir sıra hallarda adları yalnız sikkələrdə olan zərbxanaları bilməyimizə yardım edir.

Numizmatika fənni tarix ixtisası üzrə bakalavr hazırlığında seçmə fənlərə aiddir. O, mütəxəssis hazırlığında humanitar, sosial bloklara aid olan bir sıra fənlərlə, eləcə də peşə hazırlığı blokuna daxil olan fənlərlə sıx bağlı olub, bu fənlərin öyrənilməsi nəticəsində əldə edilmiş bilik və bacarıqlara söykənir. “Qafqaz numizmatikası” fənni ilə bilavasitə bağlı olan fənlər aşağıdakılardır: ”Azərbaycan tarixi”, “Arxeologiya” və b.

**Dərsin müddəti 1 semestr, 6 kredit, 15 auditoriya saatıdır.**

**Fənnin sonunda tələbə aşağıdakı kompetensiyalara yiyələnməlidir:**

1. Azərbaycan, Gürcüstan və Ermənistanda numizmatika elminin yaranması və təşəkkülünü bilmək;
2. Milli dəyərlərin qorunub saxlanılması yolunda numizmatik gerçəkliklərin anladılması;
3. Cənubi Qafqaz zərbxanaları haqqında biliklərin əldə olunması;
4. Məntiqi fikirlər yürütmək, nəticə çıxarmaq və əsaslandırmaq bacarığının formalaşdırılması;
5. Tədris prosesində Azərbaycan, Gürcüstan və Ermənistan sikkələrini mükəmməl öyrənmək, sikkə dəfinələrində aşkarlanan sikkələr əsasında ticarət əlaqələrini müəyyən etmək.

**İxtisas proqramının təlim nəticələri:**

**1.** Sikkələrin təyinatında istifadə olunan müasir bilikləri nümayiş etdirir.

**2.** Numizmatik problemlərin təsnifatı, yaratdığı fəsadlar onların həlli üzrə təkliflər təqdim edə bilir.

**3.** Numizmatik problemləri tədqiq edə, onların arasında olan əlaqəni aşkar edə, tədqiqatın nəticələrini ümumiləşdirə bilər.

**4.** Yeni ideyaları irəli sürür, fundamental problemləri üzə çıxarır, tədqiqatın vəzifələri və metodlarını müəyyən edir.

**Fənnin tədrisinin məqsədi:** Fənnin tədris olunmasında müəllimin qarşısına qoyduğu məqsədlər aşağıdakılardan ibarətdir:

1. Numizmatika anlayışına aydınlıq gətirmək, Cənubi Qafqazda zərb edilən və aşkarlanan sikkələr əsasında dəqiq və konkret nəticələr əldə etmək;
2. Tələbələrdə numizmatikanın nəzəri və tətbiqi bilik sistemlərini formalaşdırmaq;
3. Müxtəlif tarixi mərhələlərdə olan numizmatik prosesləri izləyərək dövrün pul təsərrüfatı haqqında elmi təsəvvürləri formalaşdırmaq;
4. Əsas numizmatik nəticələr və təcrübi işlərlə tələbələri tanış etmək;
5. Yeni sikkə tapıntılarına əsasən tələbələrdə numizmatik təsvir və təhlil səriştəsi aşılamaq;
6. Tələbələrə numizmatik etika və qanunauyğunluqları öyrətmək;
7. Tələbələrə müasir dövrdə numizmatikada tətbiq olunan metodoloji təcrübəni öyrətmək;
8. Tələbələri numizmatik məsələlər, onların həlli, tənzim edilməsi və s. ilə tanış etmək;
9. Tələbələrdə numizmatik prosesləri izləmə bacarıqlarını inkişaf etdirmək.
10. Öyrəndikləri bilikləri professional fəaliyyətlərində tətbiq etmək bacarığını formalaşdırmaq.

**Fənnin təlim nəticələri**:

1. Numizmatik xətaları başa düşərək onları minumuma çatdırmaq üçün müvafiq təcrübədən faydalanmaq;
2. Numizmatik ədəbiyyatda və elektron resurslarda olan məlumatlara istinad edərək həll yollarını araşdırmaq;
3. Cənubi Qafqazda aşkarlanan yeni numizmatik tapıntıları araşdırmaq;

4. Numizmatik prosesləri başa düşmək və müsbət iqtisadi dəyişikliklər əldə etmək məqsədi ilə tətbiq etmək bacarıqlarına yiyələnmək;

5. Cənubi Qafqaz numizmatikası sahəsində maraqlı olan problemləri həll etmək üçün tədqiqat həyata keçirmək bacarığını əldə etmək.

## MÖVZU 1.

**Azərbaycanda sikkələrin maddi sələfləri. Antik və ilk orta əsrlərdə Azərbaycanda sikkə zərbi və pul dövriyyəsi. Azərbaycan Sasanilər dövlətinin pul dövriyyəsi sferasında (IV-VII əsrlər).**

Makedoniyalı İsgəndərin gümüş sikkələrinə təqlidən zərb edilən sikkələr. Müvafiq dövrün sikkə dəfinələri, onların topoqrafiyası.

Alban çarlığı və Atropatenanın sikkələri. Ticarət əlaqələri.

Sasanilər dövrünün Azərbaycan zərbxanaları. Sasani simvolikası və ikonoqrafiyası.

**VIII – XV əsrlərdə Azərbaycanda sikkə zərbi və pul dövriyyəsi.**

Şirvanşah – Məzyədilərin azsaylı sikkələri. Cənub-şimal ticarətinin Azərbaycanın pul təsərrüfatına təsiri.

Azərbaycanda aşkarlanmış Xilafət canişinlərinin sikkələri (Sulamilər, Təmimilər, Cəfərilər). Sikkələrin səciyyəvi cəhətləri.

Sacilərin qızıl və gümüş sikkələri və onların təsnifatı. Salari əmirləri adından zərb edilən Azərbaycan sikkələrinin səciyyəvi cəhətləri. Rəvvadilər və Şəddadilər dövründə Azərbaycanda sikkə zərbi. Müvafiq dövr sikkələrindən ibarət Azərbaycanda tapılan təksaylı tapıntılar və sikkə dəfinələri.

Şirvanşah-Kəsranilərin və Azərbaycan atabəylərinin sikkələri. “Dirhəm”, “dinar”, “fels” anlayışının fərqlilik kəsb etməsi. Müvafiq dövrün Azərbaycan şəhər-zərbxanaları. Ticarət əlaqələrində istifadə olunan xarici sikkələr (Bizans, Kiçik Asiya Səlcuqiləri və d.).

Çingizi (Böyük monqollar) və Elxani hökmdarlarının hakimiyyəti dövründə Azərbaycanda zərb edilən sikkələr. Gümüş qaanik və dirhəmlər. III əsrin II yarısında ticarət əlaqələri.

Cəlairilərin və Teymurilərin sikkələri. Teymurun pul sistemi: təngə. “İşğal zərbi” sikkələrinin xüsusiyyətləri.

Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin gümüş təngələri.

## MÖVZU 2.

**XVI – XIX əsrin I yarısında Azərbaycan zərbxanaları. Dövrün ticarət əlaqələri.**

Şirvanşahlar dövlətində təngə (XIV – XVI əsrlər).

I İsmayılın pul-sikkə sistemi: gümüş şahinin əyarı, çəkisi. Uyğun dövrün əsas sikkə vahidi, sikkələrdəki yazılar və sikkəüstü zərb. I Təhmasibin vı II İsmayılın sikkə islahatları. “Məhəmmədi” nominalı. I Abbasın sikkə islahatı, “abbasi” gümüş sikkələri. I Səfi və varislərinin (II Abbas, II Səfi, I Süleyman, I Hüseyn, II Təhmasib, III Abbas) sikkələri.

Əfşarların sikkələri.Sultan Nadirin pul islahatı.

Müvafiq dövrün ticarətində istifadə olunan Qərbi Avropanın gümüş talerləri.

Azərbaycan xanlıqlarının (Gəncə, Şamaxı, Şəki, Qarabağ, Quba, İrəvan, Naxçıvan, Bakı, Dərbənd) gümüş və mis sikkələri. Dövrün sikkələrinin çəkisi, üzərindəki yazılar.

**XX əsrdə Azərbaycanın pul təsərrüfatı. Müstəqil Azərbaycan Respublikasının pulları (1992-2006)**

Azərbaycanda ilk kağız pulların istifadəsi (rubl və marka), nominallar.

Müsəlman Şərqində ilk respublika – Azərbaycan Cumhuriyyəti dövründə istifadə edilən kağız pullar. Pul təsərrüfatının bərpası. Nominallar, təsvirlər, yazılar. Qiymətli kağızlar (Bakı şəhər Upravasının istiqraz biletləri).

Zaqafqaziya Sovet Sosialist Respublikası Federasiyasının pul dövriyyəsindəki ən iri pul vahidi. Uyğun dövrün kağız pulları üzərindəki yazılar, təsvirlər və motivlər.

Müstəqil Azərbaycan Respublikasının pulları (1992-2006). Milli Bankın yaradılması və milli valyutanın təsis edilməsi (1992). Milli pul tədavülünün bərpası. Azərbaycan manatı (1995). Dövrün kağız pul nişanları və onların fraksiyaları. Əskinaslardakı təsvirlər.

Xatirə sikkələri (1996). Gümüş manatlar, platin, qızıl və gümüş sikkələr.

Pul nişanlarının denominayası (2005). Müstəqil Azərbaycan Respublikasının pulları (1922-2006).

**Fənnin təlim nəticəsi**

VIII – XX əsrlərdə Azərbaycanın pul dövriyyəsində iştirak edən sikkələri öyrənmək, numizmatik kataloq və ədəbiyyatda mövcud olan təyinat metodlarına istinad edərək sikkələrin zərb dövrünü araşdırmaq.

**MÖVZU 3.**

**Antik Gürcüstanda sikkə zərbi. E.ə. VI-IV əsrlərə aid Kolxida sikkələri. Dövrün ticarət əlaqələri.**

Kolxida bazilevslərinin sikkələri. Gürcüstanda aşkarlanan Roma və Parfiya sikkələri. Ellin dövlətlərinin sikkələrinə təqlidən zərb edilən sikkələr.

**Sasanilər və Ərəb Xilafəti dövründə Gürcüstan sikkələri. Ticarət əlaqələri.**

Kartli eristavrlarının hakimiyyəti dövrünə aid Sasani sikkələri. Gürcü-sasani gümüş sikkələri. Gürcüstanda zərb edilən Abbasi, Cəfəri gümüş sikkələri.

**MÖVZU 4.**

**Gürcüstan çarlığı dövründə sikkə zərbi (X – XV əsrlər). Kirmaneulilər. Gürcüstanda aşkarlanan xarici sikkələr (Bizans, Azərbaycan atabəyləri, Xarəzmşahlar, Səlcuqlular, Çingizilər, Elxanilər, Cəlairilər).**

Gürcüstan çarları dövründə zərb edilən sikkələr. Gürcü-hülakü sikkələri. Dövrün pul dövriyyəsində iştirak edən sikkələrin səciyyəvi cəhətləri. Osmanlı sikkələrinə təqlidən zərb edilən gümüş sikkələr. Gürcüstanda aşkarlanan xarici sikkələr (Bizans, Azərbaycan atabəyləri, Xarəzmşahlar, Səlcuqlular).

**Fənnin təlim nəticəsi**

Azərbaycanın pul təsərrüfında isifadə edilən pulları öyrənmək, numizmatik qənaətlər yürütmək.

**MÖVZU 5.**

**XVI – XVIII əsrlərin gürcü sikkələri və dövrün ticarət əlaqələri. XIX - XX əsrlərdə pul təsərrüfatı.**

İmereti çarlığının sikkələri. Səfəvilər, Venesiya, Hollandiya, Venqriya, Polşa, Osmanlılar, Əfşarlar ilə ticarət əlaqələri. Tiflis mis sikkələri (bisti, puli).

XIX əsrin əvvəllərində rus-gürcü sikkələri (abaz, uzaltuni, puli). XIX-XX əsrlərə aid Rusiya və Hollandiya sikkələri.

**MÖVZU 6.**

**Antik dövrdə Ermənistanda sikkə zərbi və pul dövriyyəsi.**

Antik dövrdə Ermənistanda zərb edilən gümüş drahma, tetradrahmalar və tunc sikkələr. Erkən və son orta əsrlərdə Ermənistanın pul təsərrüfatı. Ticarət əlaqələri.

Ermənistanda aşkarlanan sikkə dəfinələrinə əsasən xarici ticarət əlaqələri. Rubenilərin və Xetumilərin sikkələri.

Ticarət əlaqələri. Ermənistanda aşkarlanan sikkə dəfinələri.

**Fənnin təlim nəticəsi**

Gürcüstan və Ermənistanda zərb edilən və aşkarlanan sikkələr əsasında dövrün zərbxanalarını müəyyən etmək, ticarət əlaqələrini öyrənmək.

**MÖVZU 7.**

**XX əsrdə Ermənistanda kağız pullar.**

Dövrün pul təsərrüfatında istifadə edilən kağız pul nişanlarının xüsusiyyətləri. Zaqafqaziya bonları və Rusiya rublları. Milli valyuta – dram.

**MÖVZU 8.**

**Şimali Qafqazda pul nişanları (Tersk-Dağıstan, Kuban, Şimali Qafqaz SSR, Stavropol, Vladiqafqaz, Kislovodsk, Pyatiqorsk, Qroznensk, Kizlyar, Armavir, Maykopsk, Mineralovodsk, Qaqrı və d.).**

Tersk-Dağıstanın Müvəqqəti İcra Komitəsinin markaları və biletləri, emissiyaları. Qəpiklər və rubllar. Kuban hökümətinin rublları, Kuban – Qaradəniz Sovet Respublikasının bonları və təminat çekləri. Şimali Qafqaz SSR, Stavropol, Vladiqafqaz, Kislovodsk, Pyatiqorsk bonları və rublları. Şimali Qafqaz əmirliyi dövrünün pulları.

**Fənnin təlim nəticəsi**

Ermənistan və Şimali Qafqazın pul təsərrüfatını öyrənmək və ticarət əlaqələrini müəyyən etmək.

## Mövzuların saatlar üzrə bölgüsü

| № | Mövzunun adı | saatlar | | |
|---|---|---|---|---|
| | | **müh.** | **sem.** | **cəmi** |
| **I** | Azərbaycanda sikkələrin maddi sələfləri. Antik və ilk orta əsrlərdə Azərbaycanda sikkə zərbi və pul dövriyyəsi. Azərbaycan Sasanilər dövlətinin pul dövriyyəsi sferasında (IV-VII əsrlər). VIII – XV əsrlərdə Azərbaycanda sikkə zərbi və pul dövriyyəsi. | 1 | 1 | 2 |
| **II** | XVI – XIX əsrin I yarısında Azərbaycan zərbxanaları. Dövrün ticarət əlaqələri. XX əsrdə Azərbaycanın pul təsərrüfatı. Müstəqil Azərbaycan Respublikasının pulları (1992-2006). | 1 | 1 | 2 |
| **III** | Antik Gürcüstanda sikkə zərbi. E.ə. VI-IV əsrlərə aid Kolxida sikkələri. Dövrün ticarət əlaqələri. Sasanilər və Ərəb Xilafəti dövründə Gürcüstan sikkələri. Ticarət əlaqələri. | 1 | 1 | 2 |
| **IV** | Gürcüstan çarlığı dövründə sikkə zərbi (X – XV əsrlər). Kirmaneulilər. Gürcüstanda aşkarlanan xarici sikkələr (Bizans, Azərbaycan atabəyləri, Xarəzmşahlar, Səlcuqlular). | 1 | 1 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| **V** | XVI – XVIII əsrlərin gürcü sikkələri və dövrün ticarət əlaqələri. XIX - XX əsrlərdə pul təsərrüfatı. | 1 | 1 | 2 |
| **VI** | Antik dövrdə Ermənistanda sikkə zərbi və pul dövriyyəsi. Erkən və son orta əsrlərdə Ermənistanın pul təsərrüfatı. Ticarət əlaqələri. | 1 | 1 | 2 |
| **VII** | XX əsrdə Ermənistanda kağız pullar | 1 | 1 | 2 |
| **VIII** | Şimali Qafqazda pul nişanları (Tersk-Dağıstan, Kuban, Şimali Qafqaz SSR, Stavropol, Vladiqafqaz, Kislovodsk, Pyatiqorsk və d.). | 1 | 1 | 2 |

## Əsas ədəbiyyat

1. Məmmədova A.M. Ərəb Xilafəti dövründə Azərbaycanda sikkə zərbi və pul dövriyyəsi. Tarix üzrə f.d. alim. dər. alm. üçün təqd. dis.avtoreferatı. Bakı: 2013

2. Məmmədova A.M. Şəmkir orta əsr şəhərində aşkarlanan yeni numizmatik tapıntılar // VII Beynəlxalq Avrasiya Zirvəsi. Elmi Araşdırmalar və Aktual Problemlər Konfransı (6 - 9 dekabr 2020). Bakı: AU nəşr, s.322 - 328

3. Məmmədova A.M. Azərbaycan atabəylərinin sikkələri. Kataloq. Bakı: Təhsil NPM, 2021

4. Rəcəbli Ə. Azərbaycan sikkələri. Bakı: Xalqbank, 2012

5. Rəcəbli Ə. Qafqaz pulları (Azərb., rus və ingilis dil.). Bakı, Elm, 2016

6. Rəcəbli Ə. Ağqoyunlu və Qaraqoyunlu sikkələri. Bakı: 2019

7. Rəcəbli Ə. Şirvanşahlar dövlətində sikkə zərbi (VIII – XVI yüzillər). Bakı: 2015

8. Rəcəbli Ə. Sikkə dəfinələrinin izi ilə. Bakı: 2020

9. Бабаев И.А., Казиев С.М. Кабалиниский клад монет эллинистической эпохи / Н Э, № 9, М., 1971

10. Быков А. А. Монеты Дайсама ибн Ибрахима ал-Курди. XXX Международный Конгресс Востоковедов, М., 1960

11. Голенко К. В., Раджабли А. М. Али-Байрамлинский клад и некоторые вопросы обращения парфянских монет в Закавказье. ВДИ, № 2, 1975

12. Дадашева С. Основные черты денежного обращения Кавказской Албании // ВДИ, № 2, 1980

13. Зварич Е.Б. Нумизматический словарь. Львов: 1979

14. Касимова С.А. Атрибутика азербайджанской государственности (по материалам МИА). Автореф. канд.

дисс. Б., 2008

15. Маммадова А.М. Из истории монетной чеканки Азербайджана VIII – IX вв./ Из истории культуры народов Северного Кавказа. Ставрополь, Графа, 2008, с. 64 - 70

16. Пахомов Е.А. Монеты Азербайджана. Вып. I, Баку: Изд. АН АССР, 1959

17. Пахомов Е.А. Монеты Азербайджана. Вып. II, Баку: Изд. АН АССР, 1963

18. Пахомов Е.А. Монеты Барда'а / Известия азербайджанского филиала Академии Наук СССР. № 4, Баку: 1943

19. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. IX, Баку, 1966

20. Пахомов Е.А. О сасанидских монетных знаках / Доклады АН Азербайджанской ССР. Т. 1, Изд. АН Азербайджанской ССР, 1945, с. 44 - 46

21. Пахомов Е.А. Пайтакаран – Байлакан - Орен-кала / Труды азербайджанской (Оренкалинской) археологической экспедиции. Т. 1 (1953-1955), М.-Л.: Изд. АН СССР, 1959, с. 15-32

22. Пахомов Е.А. Пехлевийские надписи Дербенда / Известия Общества обследования и изучения Азербайджана. Вып. V, № 8, Баку: 1929, с. 3 - 25

23. Раджабли А. Нумизматика Азербайджана. Баку: Элм ва хаят, 1997

24. Раджабли А.М. Монетное дело азербайджанского государства Сефевидов. Баку, 2014

25. Сейфеддини М. А. Монетное дело и денежное обращение в Азербайджане в XII-XV вв. Б., 1973

26. Сейфеддини М.А., Бабаев И.А., Расулова М.М., Алиев З.М., Дадашова С.Х. Нумизматика Азербайджана. Баку: Элм, 1998

27. Сейфеддини М.А., Мирабдуллаев А.М. Денежное обращение и монетное дело Азербайджана IX-XIV веков (при феодальном государстве Ширваншахов и Ильдегизидов, по данным нумизматики). Баку: Nafta-Press, 2004

28. Синицина Е.А. Денежное обращение Азербайджана во II пол. XVIII–I четв. XIX вв. Автореф. канд. дисс. Б., 1992

29. Хан Н. К вопросу о начале распространения арабских дирхемов в Европе (по материалам кладов Великого Кавказа) / Нумизматика и фалеристика. № 2, 2006, с. 17 - 21

30. Янин В.Л. Денежно-весовая система домонгольской Руси. М.: 1954

31. A Manual of musulman numismatics. By O.Codrington. London: Published by Asiatic Society, 1904

32. Davidovich E. A. Coinage and the Monetary system, Part One: Central Asia / History of civilizations of Central Asia, IV: The age of achievement: A. D. 750 to the end of the fifteenth century, Part One: The historical, social and economic setting (eds. M. S. Asimov and C. E. Bosworth), Paris: UNESCO Publishing, 1998, pp. 391 - 412

33. Koumjian D. K. Numismatic History of Southeastern Caucasia and Adharbayjan. NY, 1969

34. Rabino H. L. Coins, Medals, and Seals of the Shahs of Iran (1500–1941). Herthford, 1945

35. Sellwood D. An Introduction to the coinage of Parthia. L., 1971

36. Wroth W. Catalogue of the Coins of Parthia. L., 1903

## Internet resurs:

37. https://www.zeno.ru